# METAKAİNATDA SƏNƏT

**Elçin Hüseynli**
Azərbaycan Dövlət Rəsm Qalereyasının
Elmi-bərpa, metodiki və ekspozisiya şöbəsinin müdiri
**E-mail:** elchinhousein@gmail.com

**Səh.: 136-137**
**Açar sözlər:** Metakainat, NFT, rəqəmsal incəsənət, kripto pul, bitcoin



"Arxasında onunla necə əlaqə saxlanılacağını göstərən mənasız sözlər var idi: bir telefon nömrəsi və metakainatda yerləşən bir ünvan." İlk dəfə 1992-ci ildə Nil Stefensonun "Qar uçqunu" əsərində haqqında "mənasız sözlər" olaraq bəhs edilmiş "Metaverse" termini hazırda gələcək dünya ilə bağlı söhbətlərdə tez-tez qarşımıza çıxır. Bəs nədir "Metaverse"?

Hərfi tərcüməsi "kainatın gələcəyi", "kainatın sonrası" mənalarını verən "metaverse" termini ayrı-ayrı rəqəmsal (dijital) dünyaların birləşdiyi, insanların avatarları vasitəsi ilə bu dünyalara daxil olub gündəlik həyatdakı məşğuliyyətlərini öz komfort zonalarından çıxmadan həyata keçirdiyi rəqəmsal kainat kimi mənalanır. Başqa sözlə desək, homosapiensin dijisapiensə təkamülünü sürətləndirdiyi virtual mühitdir.

Bəs materiallardan ibarət rəssamlıq dünyasının metakainatda necə bir rolu ola bilər? Bu rol fikirləşdiyimizdən daha çox və vacibdir. Əgər söhbət yenidən yaradılmış, təxəyyül məhsulu olan dünyalardan, orada heç bir fizika qanununa tabe olmağa məcburiyyət daşımayan tikililərdən və yaşayan insanlardan gedirsə, sözsüz ki, əsas işin rəssamların, yaradıcı insanların üzərinə düşməsi təəccüblü sayılmamalıdır. Və bu yeni cərəyanda hətta tanıdığımız rəssamların belə tanımadığımız, sərhədsiz, materiallardan, qanunauyğunluqlardan azad olmuş tərəflərini göstərdiyi əsərlərin bizi gözlədiyini bilmək həyəcanvericidir.

Əlbəttə ki, rəqəmsal dünyada yaradıcılıqla məşğulluq elə də sadə deyil. Həyatımıza yeni girməsə belə, təkamülünün böyük hissəsini son illərdə tamamlayaraq sənət dünyasının diqqətini özünə çəkməyi bacarmış NFT və kripto pullarla işləmək vərdişlərimizi inkişaf etdirməyə məcburuq. Biz mövzuya uyğun olaraq məsələnin NFT tərəfini təhlil etməyə çalışacağıq. Bəs NFT nədir?

Açılışı "Non Fungible Token" olan NFT-in tərcüməsi "təkrarı olmayan rəqəmsal fayl"dır. Bu üsul ilə siz dəyərli hesab etdiyiniz hər hansı rəqəmsal fayla, hətta "jpg" fayllara belə sahiblənə bilərsiniz. 1960-cı illərdən mövcud olan rəqəmsal sənət artıq NFT vasitəsi ilə öz hüquqlarını qorumağa, əsərin satılması ilə böyük pullar qazanmağa daha yaxın sahədir. Bunun ilk nümunəsini 11 mart 2021-ci ildə gördük. Mayk Vinkelman adlı dizayner özünə verdiyi "zənciri qırma!" tapşırığını 2020-ci ildə tamamlayaraq 5000 fotodan ibarət hazırladığı kollajı məhz bu tarixdə 69 milyon dollara satmağı bacardı.

Çoxumuz NFT barədə ilk dəfə bu hadisədən sonra maraqlanmağa başladıq. Hamıya NFT-in nə olduğu və belə dəyərə necə yüksəldiyi maraqlı idi. Sənət əsərlərinin dəyəri uzun illərdir ki, bir metodla yoxlanılır. Qeyd-şərtsiz, özündən əvvəlkilərə heç oxşamayıb, özündən sonrakılara oxşayan sənət əsəri dəyərlidir. Bununla yanaşı, sözügedən sənət əsərinin həm də təkrarsızlığını, unikallığını nəzərə alsaq, belə yüksək qiymətə satılmağı məsələsinə aydınlıq gəlməyə başlayır. Özündən əvvəl satılan heç bir rəsm əsərinə oxşamayan bu NFT, şübhəsiz ki, yeni bir dövrün başlanğıcı oldu. Kripto pulların da dəyərinin zaman keçdikcə artmasının səbəblərindən ən əsası məhdud sayda buraxılmasıdır. Kripto pulların kodları elə dizayn olunub ki, bir müddət sonra artıq yenilərini yaratmaq mümkün olmayacaq. Məsələn, ən məşhur kripto pul vahidlərindən biri "Bitcoin"in 2140-cı ildən etibarən istehsalı dayanacaq və sadəcə o ilə qədər yazılmış "Bitcoin"lər mübadilə vasitəsi ola biləcək. Həmin məhdud dairəni bilən insanlar da artıq öz "coin"lərini daha qənaət və ehtiyatla xərcləməyə başlayacağından prosesin "bitcoin"in dəyərini dəfələrlə qaldıracağı təxmin edilir.

Yenə də ənənəvi satış məntiqinə geri dönürük. Yatırım etmək, pulun daha etibarlı saxlanılmasının və gələcəkdə yüksək dəyər

qazanmasının təmini üçün qızıl, hissə sənədləri və ya NFT əsər almaq tamamilə eyni məntiqə əsaslanır. Qızılın dəmirə nisbətən baha, qiymətli metal hesab edilməyinin tək səbəbi planetimizdə daha az sayda olmasıdır.

Amma yenə də 69 milyonun bir rəqəmsal fayl üçün çox olduğunu fikirləşsəniz, yüksək qiymətə satılmış rəsm əsərlərinə nəzər sala bilərsiniz. İstənilən dünyaca məşhur rəsm əsərinin fotosunu sadəcə çap edib evdən asmaq olar, amma orijinalını almaq üçün milyonlar xərcləməlisiniz. Hər nə qədər metakainat, rəqəmsal dünya və yeni rəssamlıq metodlarından danışsaq da, əsərlərin satışı məntiqi yenə ənənəvidir. Fərqli olan digər şey əsərin satın alındığı valyuta növüdür. Əsər kripto pul ilə alınıb. Başqa sözlə desək, tamamilə virtual bir əsər virtual bir mühitdə və yenə də virtual pul ilə alınıb. Çox futurist görünən bu cümlədə bəhs olunan mübadilə haqqında bilmədiyimiz başqa məqamlar da var. Məsələn, NFT alan şəxs əslində rəqəmsal faylın özünü almır. NFT-i aldığını sübut edən qəbzi alır. Hər bir NFT-ni özlüyündə sənətçi tərəfindən hazırlanan kripto pul vahidi hesab etmək olar. Əgər bu NFT-in gələcəkdə dəyər qazanacağına satıcının və sənətçinin inamı kifayət qədərdirsə, satış həyata keçirilir. Yəni əslində heç kim rəqəmsal fayla pul ödəmir.

Bəs niyə NFT əsərlər almaq lazımdır və ya niyə kripto varlıları belə əsərlərə yatırım edirlər? Əvvəla, hələ də yeni sayıla biləcək kripto pullar ilə alına biləcək məhsulların sayı barmaqla sayılacaq qədər məhduddur. Nağdlaşdırılması mümkünsüz sayıla biləcək dərəcədə çətin olan kripto pulların istifadəsinə sadəcə bəzi texnologiya şirkətləri və ölkələr icazə verir. İkinci və daha əsas səbəb əldə olunan NFT əsərlərin hələ də inşası davam edən metakainatda istifadəsidir. Yuxarıda bəhs etdiyim Bipl ləqəbli rəssamın 5000 fotodan ibarət NFT əsərini alan Viqneş Sandaresan bu fotoları metakainatda yaratdığı bir "bazar"da sərgiləməyi düşündüyünü açıqlamışdır. Bundan başqa, dünya şöhrətli rəssam Takaşi Murakaminin son dövrlərdə "RTFKT Studio" üçün hazırladığı NFT personajların metakainatda insanlar tərəfindən avatar kimi istifadə olunacağı gözlənilir.

NFT faylların satılması ilə bağlı digər bir müsbət xüsusiyyət ondan ibarətdir ki, bu rəqəmsal fayl öz sənətçisi ilə əlaqəsini heç vaxt kəsmir. Əksinə NFT-i alan şəxs hər hansı bir səbəbdən faylı digər bir şəxsə satmaq istədikdə gələn gəlirin müəyyən hissəsi yenə də sənətçinin hesabına köçürülür.

Başqa dillərdə olan terminlər, öyrəşmədiyimiz texnoloji söhbətlər ola bilsin ki, bizdə bütün bu proseslərin uzaq Qərbdə baş verdiyi təəssüratı yaradır. Amma 133 NFT əsəri 93 müxtəlif kolleksiyaçı tərəfindən alınan həmyerlimiz Tural Məmmədzadə bu sahədə çoxsaylı uğurlara imza atmışdır. Leonardo da Vinçi Beynəlxalq hava limanında 6 holoqram əsəri sərgilənən NFT sənətçisi hazırda bu sahənin qlobala çıxmaqda yaratdığı üstünlüklərdən istifadə edərək eyni zamanda həm İtaliya, həm də Amerikadan olan qurumlarla əməkdaşlıq qurub və incəsənətin bütün sahələrindən sənətçilərin mütləq rəqəmsal dünyada inkişaf etmələrinin vacibliyinə inanır.

Yaxın günlərdə məşhur "Facebook" şirkətinin də adının dəyişilərək "Meta" qoyulması gələcəyin çox da uzaqda olmadığını bir daha sübut etdi. Artıq gələcəyi düşünüb xəyallar qurarkən səmaya deyil, monitora baxmalı olduğumuz Meta dövrünün incəsənət cəbhəsində baş verən prosesləri izləyib inkişaf etmək və ya kainatın inşasında birbaşa iştirakı seçmək öz əlimizdədir. ◆

**Ədəbiyyat:**


1. Denyl L. Brey. NFT and Cryptoart
2. https://www.nytimes.com/2021/11/05/technology/facebook-stores-meta-metaverse.html
3. https://www.theverge.com/2021/3/11/22325054/beeple-christies-nft-sale-cost-everydays-69-million
4. https://www.youtube.com/watch?v=5ZWBht99EJ8&ab_channel=DWT%C3%BCrk%C3%A7e



**Резюме:**

Эльчин Гусейнли

ИСКУССТВО В МЕТАВСЕЛЕННОЙ

В статье рассматривается адаптация мира искусства к современности, метавселенной и технологии NFT, последние инновации в этой области.

**Ключевые слова:** Метавселенная, NFT, цифровое искусство

**Summary:**

Elchin Huseynli

ART IN THE METAVERSE

The article discusses the adaptation of the art world to modern times, Metaverse and NFT technology, and the latest innovations in this field.

**Key words:** Metaverse, NFT, Digital art